**Arzu Yaqubqızı**

## Qəlbimi Oxuyan Adam

Bilmirəm daşam, divaram
Bilmirəm dərddən qubaram
Dərd ağacında nübaram
Qəlbimi oxuyan adam.

Atam, anam vardı getdi
Sinəmi dərd çaldı getdi
Görən sözüm harda bitdi
Qəlbimi oxuyan adam.

İllər saçlarımda dəndi
Qayğılarım pöhrələndi
Şerim də gözümtək nəmdi
Qəlbimi oxuyan adam.

Tikanlandı çox yol, izim
Alaqlandı çiçək düzüm
Dilimi göynədir sözüm
Qəlbimi oxuyan adam.

İtirmədim vüqarımı
İtirdim çox baharımı
Dondurub nisgil qanımı
Qəlbimi oxuyan adam.

Gecədə işıq gəzən mən
Ah, üzdüm səni deyəsən
Yazdığım sözdən küsən mən
Qəlbimi oxuyan adam.

Hər misranın qanadıyam
Mən şerimin inadıyam
Mən şerimin qanadıyam
Qəlbimi oxuyan adam.